# 11 AYIN SULTANI - RAMAZAN!

Ramazan - Hicri təqviminin 9-cu ayı. İslam dininin etiqadına görə, Məhəmməd Peyğəmbərə Quran ayələrinin enməyə, eyni zamanda müsəlmanların oruc tutumağa başladığı aydır. Bu ayda oruc tutmaq İslamın beş şərtindən biridir...

**Ramazan ayında səmanın qapıları açıq olur, yəni digər aylarla müqayisədə bu ayda insanların Allaha qəlbən yaxınlaşması daha asandır. Rəvayətlərdə yazılıb ki, Ramazan ayında Behiştin qapıları açıq olur, yəni orucluğun bərəkəti, bu ayda diqqətini Allaha yönəldib Rəbbi qarşısında itaətkarcasına təslim olmaq sayəsində insanın xeyir işlər görməsi üçün gözəl fürsət və mənəvi güc yaranır.**




*(Əvvəli ötən sayımızda)*

**Nafilə namazları**

**1-ci gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 15 dəfə "İxlas" surəsi oxunur.

**2-ci gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 20 dəfə "Qədr" surəsi oxunur.

**3-cü gecə**

10 rükət (5 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 50 dəfə "İxlas" surəsi oxunur.

**4-cü gecə**

8 rükət (4 dəfə 2rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 20 dəfə "Qədr" surəsi oxunur.

**5-ci gecə**

2 rükət namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 50 dəfə İxlas" surəsi oxunur. Namazın salamından sonra isə 100 dəfə salavat deyilir.

**6-cı gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 1 dəfə "Mülk" surəsi oxunur.

**7-ci gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 13 dəfə "Qədr" surəsi oxunur.

**8-ci gecə**

2 rükət namaz. Hər rükət də "Fatihə" surəsindən sonra 10 dəfə İxlas" surəsi oxunur. Namazın salamından sonra isə 1000 dəfə "Subhanallah" zikri deyilir.

**9-cu gecə**

Şam namazı və İşa namazı arasında 6 rükət (3 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 7 dəfə "Ayətül-kürsü" oxunur. Bundan sonra isə 50 dəfə salavat deyilir.

**10-cu gecə**

20 (10 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 30 dəfə "İxlas" surəsi oxunur.

**11-ci gecə**

2 rükət namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 20 dəfə "Kövsər" surəsi oxunur.

**12-ci gecə**

8 rükət (4 dəfə 2rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 30 dəfə "Qədr" surəsi oxunur.

**13-cü gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 30 dəfə "Qədr" surəsi oxunur.

**14-cü gecə**

6 rükət (3 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 30 dəfə "Zəlzələ surəsi oxunur.

**15-ci gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. 1-ci 2 rükətdə "Fatihə" surəsindən sonra 100 dəfə "İxlas" surəsi oxunur. 2-ci 2 rükətdə isə "Fatihə" surəsindən sonra 50 dəfə "İxlas" surəsi oxunur.

**16-cı gecə**

12 rükət (6 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 12 dəfə "Təkasur" surəsi oxunur.

**17-ci gecə**

2 rükət namaz. 1-ci rükətdə "Fatihə" surəsindən sonra istənilən surə, ikinci rükətdə isə 100 dəfə "İxlas" surəsi oxunur. Namazdan sonra isə 100 dəfə "La ilahə illallah" zikri deyilir.

**18-ci gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 25 dəfə "Kövsər" surəsi oxunur.

**19-cu gecə**

50 rükət (25 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 1 dəfə "Zəlzələ" surəsi oxunur.

20-ci gecədən 24-cü gecəyə qədər (20-ci, 21-ci, 22-ci, 23-cü və 24-cü gecələr) Hər gecə 8 rükət (4 dəfə 2rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra istənilən surə oxuna bilər.

**25-ci gecə**

8 rükət (4 dəfə 2rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 10 dəfə "İxlas" surəsi oxunur.

**26-cı gecə**

8 rükət (4 dəfə 2rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 100 dəfə "İxlas" surəsi oxunur.

**27-ci gecə**

4 rükət (2 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 25 dəfə "İxlas" surəsi oxunur.

**28-ci gecə**

6 rükət (3 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 100 dəfə "Ayətül-kürsü", 100 dəfə "İxlas" və 100 dəfə "Kövsər" surəsi oxunur.

Namazdan sonra isə 100 dəfə salavat deyilir.

**29-cu gecə**

2 rükət namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 10 dəfə "İxlas" surəsi oxunur.

**30-cu gecə**

12 rükət (6 dəfə 2 rükətli) namaz. Hər rükətdə "Fatihə" surəsindən sonra 20 dəfə "İxlas" surəsi oxunur. Namaz dan sonra isə 100 dəfə salavat deyilir.

## Ramazan ayının gündəlik duaları

Allah Qurani-Kərimin Ğafir surəsinin 60-cı ayəsində buyurur: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim".

Həmçinin Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Dua möminin silahıdır".

İbn Abbasdan nəql edilmiş rəvayətlərin birində deyilir: "Həzrət Peyğəmbər (s) mübarək Ramazan ayının hər gününün orucu üçün çoxlu fəzilətlər bəyan etdi və hər bir gün üçün çoxlu savab və fəziləti olan məxsus bir duanın olmasını buyurdu".

Həmin dualar aşağıdakılardan ibarətdir:

**3-cü günün duası**

**Oxunuşu:** Əllahummərzuqni fihiz-zihnə vət-tənbih və ba'idni fihi minəs-səfahəti vət-təmvih vəc'əl li nəsibən min kulli xəyrin tunzilu fihi, bicudikə ya əcvədəl-əcvədin!

**Tərcümə:** Allahım, mənə bu ayda zehin itiliyi və ayıqlıq əta et, məni bu ayda səfehlik və səhvdən uzaqlaşdır, mənə bu ayda nazil etdiyin bütün xeyirlərdən bir pay ver, səxavətliliyinə xatir ey səxavətlilərin ən səxavətlisi!

**4-cü günün duası**

**Oxunuşu:** Əllahummə qəvvini fihi əla iqaməti əmrikə və əziqni fihi həlavətə zikrikə və əuzi'ni fihi liədai şukrikə bikərəmikə vəhfəzni fihi bihifzikə və sitrikə ya əbsərən-nazirin!

**Tərcümə:** Allahım, mənə bu ayda Sənin əmrlərini yerinə yetirməkdə qüvvət ver, mənə bu ayda zikrinin şirinliyini dadızdır, şükrünü yerinə yetirməyi mənə ilham et, kərəminə and verirəm, məni bu ayda nəzarət və örtüyünlə qoru, ey görənlərin ən bəsirətlisi!

**5-ci günün duası**

**Oxunuşu:** Əllahummməc'əlni fihi minəl-mustəğfirin vəc'əlni fihi min ibadikəs-salihinəl-qanitin vəc'əlni fihi min övliyaikəl-muqərrəbin birə'fətikə ya ərhəmər-rahimin!

**Tərcümə:** Allahım, məni bu ayda istiğfar edərək bağışlanma diləyənlərdən et, məni bu ayda itaətkar və saleh bəndələrindən et, məni bu ayda yaxın övliyalarından et, mehribanlığına xatir ey mehribanların ən mehribanı!

**6-cı günün duası**

**Oxunuşu:** Əllahummə la təxzulni fihi litəərruzi mə'siyətikə və la təzribni bisiyati nəqimətikə və zəhzihni fihi min mucibati səxətikə bimənnikə və əyadikə ya muntəha rəğbətir-rağibin!

**Tərcümə:** Allahım, bu ayda Sənə qarşı olan itaətsizliyə görə məni tərk etmə, məni intiqam qamçınla vurma, məni Sənin qəzəbinə səbəb olan şeylərdən uzaqlaşdır, Öz lütf və qüdrətinə xatir, ey istəyənlərin istəklərinin sonu!

**7-ci günün duası**

**Oxunuşu:** Əllahummə əinni fihi əla siyamihi və qiyamih və cənnibni fihi min həfva:işi və əsamih vərzuq ni fihi zikrəkə bidəvamih bitövfiqikə ya hadiyəlmuzillin!

**Tərcümə:** Allahım, mənə bu ayın orucunu tutmağa və ibadət edərək gecələrini oyaq qalmağa kömək et, bu ayda onu günah və büdrəmələrindən uzaqlaşdır, Səni davamlı zikr etməyi mənim ruzim et,istədiyini müvəffəq etməyinə xatir ey yolunu azmışların bələdçisi!

**8-ci günün duası**

**Oxunuşu:** Əllahummərzuqni fihi rəhmətəl-əytami və itamət-təami və ifşaəs-səlami və suhbətəl-kirami bitəulikə ya məlcəəl-amilin!

**Tərcümə:** Allahım, bu ayda mənə yetimlərə mehribançılığı, aclara təam verməyi, salamı aşkar etməyi və kəramət əhli ilə oturub-durmağı nəsib et, ətalarına xatir ey arzu edənlərin sığınacağı!

**9-cu günün duası**

**Oxunuşu:** Əllahumməc'əl li fihi nəsibən min rəhmətikəl-vasiəti vəhdini fihi liburahinikəs-satiəti və xuz binasiyəti ilə mərzatikəl-camiəti bimahəbbətikə ya əmələl-muştaqin!

**Tərcümə:** Allahım, bu ayda mənə Öz geniş rəhmətindən bir pay ver, məni Özünün parlaq dəlillərinə hidayət et, hərtərəfli razılığa tərəf yönəlt, məhəbbətinə xatir ey həsrətini çəkənlərin arzusu!

**10-cu günün duası**

**Oxunuşu:** Əllahumməc'əlni fihi minəlmutəvəkkilinə ələykə vəc'əlni fihi minəlfaizinə lədəyk vəc'əlni fihi minəl-muqərrəbinə iləykə biehsanikə ya ğayətət-talibin!

**Tərcümə:** Allahım, məni bu ayda Sənə təvəkkül edənlərdən, Sənin yanında kama çatan və uğur əldə edənlərdən və Sənin dərgahına yaxın olanlardan et, ehsanına xatir ey axtaranların hədəfi!

*(Ardı var)*

**Hazırladı: İ.SABİRQIZI**